**“Unicapital İŞ” ASC-NİN**

**İNKİŞAF SİYASƏTİ**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”-nin müddəaları sırasında “Maliyyə bazarlarının inkişafı” öz əksini tapmışdır. Bu bir daha Maliyyə sektorunun ölkə iqtisadiyyatı üçün nə dərəcədə əhəmiyyətli, mühüm və gələcək üçün perspektivli sahələrdən biri olduğunu sübut edir.

Azərbaycan maliyyə bazarının əsas iştirakçılarından biri olan “Unicapital İŞ” ASC Azərbaycan maliyyə bazarının inkişafına daima öz töhvəsini verməkdədir və şirkətin inkişaf siyasətinin əsas prioriteti məhz maliyyə bazarının inkişafına yönəlmişdir.

Qarşıya qoyulmuş məqsədlərə və maliyyə bazarının inkişafına nail olmaq yolunda “Unicapital İŞ” ASC öz fəaliyyətini aşağıdakıları əsas götürməklə təmin etməlidir:

Fəaliyyətini şəffaflıq, ədalətlilik və dürüstlük prinsipləri əsasında həyata keçirmək;
Qanunvericiliklə müəyyən olunmuş tələblərə riayət etmək;
Dövlət orqanları qarşısında öz öhdəliklərini yerinə yetirmək və qanunvericilik ilə müəyyən edilmiş qaydada, müddətdə və məbləğdə vergi və digər icbari ödənişləri ödəmək;
Çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi və korrupsiyaya qarşı mübarizə ilə bağlı tədbirləri həyata keçirmək;
Etik normaları, biznesin aparılması qaydalarını və şirkətin reputasiyasını qorumaq;
Müştərilərə həm əlverişli şərtlərlə, həm də keyfiyyətli xidmətləri və məhsulları təklif etməklə özünü etibarlı tərəfdaş kimi doğrultmaq;
Müştəri məmnuniyyəti təmin etmək və məmnunluğun ölçülməsi prosesini daima təkmilləşdirmək və mükəmməlləşdirmək;
Müştəri məlumatlarının, konfidensiallığın tam qorunmasını təmin etmək;
Şirkətin maliyyə göstəricilərini daima yaxşılaşdırmaq, gəlir və xərclərə nəzarət etmək və vəsaitlərdən səmərəli istifadəni təmin etmək;
Müştərilər qarşısında öhdəliklərin tam yerinə yetirilməsi məqsədi ilə kifayət qədər ehtiyat fondu formalaşdırmaq;
Şirkətin maliyyə hesabatlarının həm yerli qanunvericiliyə, həm də Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğunluğunu təmin etmək;
Peşəkar kollektivin və sağlam iş mühitinin mövcud olmasını təmin etmək;
Əməkdaşların karyera inkişafına şərait yaratmaq, onların əmək təhlükəsizliyini təmin etmək, əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədi ilə mütəmadi olaraq təlim və treninqlər təşkil etmək;
Keyfiyyətə nəzarət sistemini və şirkət daxili bütün prosesləri daima təkmilləşdirmək və mükəmməlləşdirmək;
Fəaliyyətində müasir texnologiyaların və yeniliklərin tətbiq edilməsi üçün daima öz üzərində çalışmaq.